# Gəncədə "Neonatologiyanın son nailiyyətləri" mövzusunda beynəlxalq konfrans keçirilib



Gəncədəki Heydər Əliyev Mərkəzində "Neonatologiyanın son nailiyyətləri" mövzusunda ikigünlük beynəlxalq konfrans keçirilib.

Azərbaycanın tanınmış həkimləri ilə yanaşı, Türkiyənin EGE Universitetinin professor və müəllimlərinin də iştirak etdiyi konfransdan əvvəl iştirakçılar ümummilli lider Heydər Əliyev Mərkəzinin qarşısındakı abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Azərbaycanın şəhər və rayonlarında bu sahədə çalışan aparıcı həkimlərin iştirak etdiyi konfransı Gəncə Şəhər Səhiyyə İdarəsinin rəisi, tibb elmləri doktoru, professor Əlikram Məmmədov açaraq neonatologiya sahəsində çalışan aparıcı mütəxəssislərin əldə etdikləri son nailiyyətlərə, qarşıda duran aktual problemlərin həllinə həsr edilmiş belə bir mötəbər tədbirin Gəncədə keçirilməsini şəhər sakinləri üçün əlamətdar hadisə adlandırıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev son illər Azərbaycan səhiyyəsində aparılan islahatlardan, bu islahatlar nəticəsində qazanılan uğurlardan danışaraq bildirib ki, ölkə rəhbərinin insanların sağlamlığının qorunması istiqamətində verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq Gəncədə də bir sıra işlər həyata keçirirlib. Yeni, ən müasir tələblərə cavab verən səhiyyə ocaqları yaradılıb, köhnələr əsaslı şəkildə yenidən qurulub. Artıq demək olar ki, insanlar yaşadıqları şəhərdə yüksək səviyyəli səhiyyə xidmətindən istifadə edirlər.

Sonra tibb elmləri doktoru İbrahim İsayevin, Türkiyənin EGE Universitetinin tibb fakültəsinin professoru Mehmet Yalazın, dosent doktor Özge Altun Köroğlunun, uzman doktor Cəmalə Məmmədovanın, həkim-neonatoloq Təranə Göyüşovanın və digər mütəxəssislərin məruzələri dinlənilib. Konfransda yeni doğulmuş uşaqların orqanizmində müşahidə edilən xəstəliklərin və onun müalicəsindəki təcrübələrin, bu sahədə elmi araşdırmaların nəticələri ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***